

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 235 (23.146)

*8 dekabr 2018-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası müəllimlərinin konfransının iştirakçılarına

Hörmətli müəllimlər!

Sizi – Naxçıvan Muxtar Respublikasının müəllimlərini səmimi qəlbdən salamlayır, konfransa öz işində uğurlar arzulayıram.

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə müəllim əməyinə daim yüksək qiymət vermiş, təhsilin inkişafını diqqətdə saxlamış, Azərbaycan müəllimi ölkəmizin ziyalı təbəqəsinin aparıcı qüvvəsinə çevrilmişdir. Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən də bu siyasət uğurla davam etdirilir. Hazırda Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında təhsil sahəsi davamlı inkişafa qovuşub, ixtisaslı müəllim kadrları hazırlanır və müəllim əməyinə qayğıkeş münasibət göstərilir.

Muxtar respublikada 200-dən artıq ümumtəhsil məktəbinin tikilməsi və ya yenidən qurulması, ali və orta ixtisas təhsili müəssisələri üçün yeni tədris korpuslarının, universitet şəhərciklərinin, peşə məktəblərinin istifadəyə verilməsi pedaqoji fəaliyyət sahəsində geniş imkanlar açıb. Yaradılan şəraitin nəticəsidir ki, muxtar respublikada öz peşəsini dərindən sevən peşəkar müəllim ordusu formalaşmışdır.

Bu gün muxtar respublikada mütərəqqi təhsil metodlarının tətbiqi müəllim zəhmətinin bəhrələrini daha da artırır, ali və orta ixtisas məktəblərinə tələbə qəbulunda uğurlu nəticələr qazanılır, təhsil müəssisələrində təhsilli, vətənpərvər və geniş dünyagörüşə malik gənc nəsil yetişir.

Əminəm ki, muxtar respublika müəllimləri bundan sonra da təhsilin inkişafında yorulmadan çalışacaq, vətənpərvər və bilikli gənc nəsil yetişdirəcəklər.

Naxçıvan Muxtar Respublikası müəllimlərinin konfransını Naxçıvan təhsilinin inkişafında mühüm mərhələ kimi dəyərləndirir, çətin və şərəfli fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

Hörmətlə,

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 dekabr 2018-ci il*

## Naxçıvan Muxtar Respublikası müəllimlərinin konfransı keçirilmişdir



***Dekabrın 7-də Naxçıvan Muxtar Respublikası müəllimlərinin konfransı keçirilmişdir.***

Konfrans iştirakçıları ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoymuş, ulu öndərin xatirəsinə ehtiramlarını bildirmişlər. Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatı, siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlarla tanışlıqdan sonra abidə önündə xatirə şəkli çəkdirilmişdir.

Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilən konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun konfrans iştirakçılarına təbrik məktubu oxunmuşdur.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək muxtar respublikada təhsilə göstərilən qayğıdan danışmışdır. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı sahəsində ardıcıl tədbirlər görülür, təhsil müəssisələrinin maddi-tədris bazası möhkəmləndirilir. Ötən dövrdə muxtar respublikanın şəhər, rayon və kəndlərində 200-dən çox təhsil müəssisəsi, o cümlədən məktəbəqədər və məktəbdənkənar təhsil, musiqi məktəbləri, Heydər Əliyev adına Hərbi Lisey, ali və orta ixtisas təhsili müəssisələri üçün yeni tədris korpusları tikilib istifadəyə verilmişdir. Bu işlər 2018-ci ildə də davam etdirilmiş, 2096 şagird yerlik 8 ümumtəhsil məktəbi, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Tibb Kolleci və Ordubad Rayon Təhsil Şöbəsi üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda 3 ümumtəhsil müəssisəsi və Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi üçün binaların tikintisi davam etdirilir.

Muxtar respublikanın ümumtəhsil məktəblərində 5500-dən artıq kompüter və 600-dən çox elektron lövhə quraşdırılmış, laboratoriyalar və fənn kabinələri şagirdlərin istifadəsinə verilmiş, kitabxanalar 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş bədii ədəbiyyatla təmin olunmuşdur. Təhsil müəssisələrinin pedaqoji kadrlara olan tələbatını ödəmək məqsədilə muxtar respublikanın ali təhsil müəssisələrində pedaqoji yönümlü ixtisaslar açılmış, yüksək səviyyəli müəllim kadrlarının hazırlanması diqqətdə saxlanılmışdır. Qeyd olunub ki, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası da diqqətdə saxlanılmış, məhdud fiziki imkanlı uşaqlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi, görmə və eşitmə qabiliyyəti məhdud uşaqlar üçün isə audio və elektron kitabxana yaradılmışdır.

Təhsil naziri qeyd edib ki, muxtar respublikanın təhsil müəssisələrində şagird, tələbə və müəllimlərin vahid geyim formasından istifadə etməsi tədrisin və təlim-tərbiyənin yüksəldilməsinə öz müsbət təsirini göstərmişdir. 2018-ci ildən pedaqoji kadrların müsabiqə yolu ilə işə qəbulu isə gənc kadrların işlə təmin olunmasına, eləcə də ümumtəhsil müəssisələrinin bilikli müəllimlərlə təminatına geniş imkanlar açmışdır. Hazırda muxtar respublikanın ümumtəhsil məktəblərində 49 min 224 şagirdin təhsili ilə 6642 müəllim məşğul olur. Onlardan 44-ü yeni tədris ili ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilən müsabiqədə yüksək nəticə göstərərək işlə təmin olunmuşdur. Hazırda rayon mərkəzindən uzaq məsafədə yerləşən kənd məktəblərində fəaliyyət göstərən 80 müəllimə həvəsləndirmə tədbirləri tətbiq edilib. Müəllimlərin ictimai fəallığı da artmışdır. Belə ki, muxtar respublika müəllimlərindən 13-ü Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır. Müəllimlərin maddi rifah halının yaxşılaşdırılması da diqqətdə saxlanılmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə bilik və bacarıqları qiymətləndirilmiş müəllimlərin əməkhaqları və dərs saatları artırılmışdır.

Müəllim əməyinə verilən yüksək qiymət, təhsil müəssisələrində yaradılanlar tədrisin səviyyəsini artırmış, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilbəil artmışdır. Əvvəlki illərdə olduğu kimi, 2017-2018-ci tədris ilinin də nəticələri uğurlu olmuş, məzunlardan 1781-i ali məktəblərə, 615-i isə orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşdur. Onlardan 331-i 500-700 arası bal toplamış, 6 məzun isə Prezident təqaüdünə layiq görülmüşdür. Muxtar respublikada təhsil sahəsində görülən işlər müəllim nüfuzunu yüksəltmiş, müəllimlik peşəsinə marağı əhəmiyyətli dərəcədə artırmışdır. Bunun nəticəsidir ki, 2017-2018-ci tədris ili üzrə məzunların 658-i, yaxud 37 faizi ali təhsil müəssisələrinin pedaqoji ixtisaslarına qəbul olmuşdur.

Təhsil naziri Rəhman Məmmədov bildirmişdir ki, müəllimlərin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Muxtar respublikanın 24 ümumtəhsil məktəbi "ən yaxşı məktəb", 40 müəllim isə "Azərbaycan Respublikasının ən yaxşı müəllimi" adlarına layiq görülmüşdür. Müəllimlərdən 112-si "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 181-i isə "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adlarına layiq görülmüş, 104 müəllim "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Təhsil naziri təhsilə və müəllimlərə göstərdiyi diqqət və qayğıya və Naxçıvan Muxtar Respublikası müəllimlərinin konfransına ünvanladığı məktuba görə muxtar respublikanın bütün təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirmişdir.






Konfransda Naxçıvan Müəllimlər İnstitutunun rektoru Elbrus İsayev, Naxçıvan Tibb Kollecinin direktoru Sona Məmmədova, Naxçıvan Qızlar Liseyinin direktoru Aidə Allahverdiyeva və Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin müəllimi Ülvanə Məmmədli çıxış etmişdir. Çıxışlarda bildirilmişdir ki, Azərbaycan xalqının milli təfəkküründə müəllim adı hər zaman ucalıq, ziyalılıq və mənəvi saflıq rəmzi kimi təcəssüm olunmuş, böyük hörmət və yüksək ehtiramla çəkilmişdir. Sosial statusundan, tutduğu vəzifədən asılı olmayaraq, hər bir şəxs cəmiyyətdəki mövqeyinə, formalaşmasına və qazandığı biliklərə görə, ilk növbədə, müəllimlərinə borcludur. Çünki müəllimlər əsas vəzifəni – gənclərin təhsili, təlim-tərbiyəsi məsələsini yerinə yetirirlər. Müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Muxtar respublikanın təhsil müəssisələrində yaradılmış şərait müəllimləri daha yaxşı işləməyə sövq edir.

Çıxış edənlər təhsilin inkişafı üçün yaradılan şəraitə görə muxtar respublikanın müəllimləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildirmişlər.

Tədbirin aparıcıları görkəmli pedaqoqların əsərlərindən parçalar oxumuş, təhsillə bağlı müdrik fikirləri konfrans iştirakçılarının diqqətinə çatdırmışlar.

Sonra görkəmli pedaqoq, Naxçıvanda ilk dünyəvi məktəbin əsasını qoymuş maarifçi Məhəmməd Tağı Sidqiyə həsr olunmuş "Xalqın müəllimi" sənədli filminə baxış olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## İstehlakçıların hüquqları qorunur

Muxtar respublika iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi, yerli məhsulların ixracının dəstəklənməsi, idxaldan asılılığın azaldılması, həmçinin yerli resurs və xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən müəssisələrin yaradılması istiqamətində tədbirlər noyabr ayında da davam etdirilmişdir. Bu dövrdə sənaye və kənd təsərrüfatı yönümlü 12 istehsal sahəsi yaradılmaqla, ümumilikdə, 43 müəssisə fəaliyyətə başlamışdır.

İstehlakçıların hüquqlarının qorunması daxili bazara nəzarət və keyfiyyətin yüksəldilməsi üçün 105 halda topdan və pərakəndə ticarət, istehsal müəssisəsi və xidmət obyektində nəzarət tədbirləri həyata keçirilmiş, 11609 manat dəyərində istehlak müddəti bitmiş məhsullar aşkar olunaraq ticarət dövriyyəsindən çıxarılmış, 644 yerli və idxal ərzaq məhsullarından nümunələr götürülərək Mərkəzi Qida Sınaq Laboratoriyasında təhlil edilmiş, 8 mənşə sertifikatı verilmişdir. "Qaynar xətt" vasitəsilə 760 sahibkarlıq subyekti ilə maarifləndirmə istiqamətində iş aparılmış, sahibkarlıq fəaliyyətinə maneələr törədilməsi ilə bağlı sahibkarlıq subyektlərindən daxil olan şikayətlərə mütəmadi olaraq baxılmış və müvafiq köməklik göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası istiqamətində hamiliyə verilən ixtisaslarda təhsil alan tələbələrə nazirliyin fəaliyyəti istiqamətlərini əks etdirən 4 mövzu üzrə mühazirələr oxunmuş, bir sıra müəssisələrin istehsal prosesi ilə yaxından tanış olmaları təmin edilmişdir.

Naxçıvan Biznes Mərkəzi tərəfindən muxtar respublikada xalq yaradıcılığı sahələrinin inkişafı, sənətkarların fəaliyyətinin stimullaşdırılması və iş şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilmiş, 22 adda 910 manat dəyərində əl işi və sənət əsərləri qəbul edilmiş, 38 adda 474 manat dəyərində əl işi satılmışdır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*10 dekabr Ümumdünya İnsan Hüquqları Günüdür*

# Muxtar respublikada insan hüquq və azadlıqları etibarlı şəkildə qorunur

***1948-ci il dekabrın 10-da Birləşmiş Millətlər Təşkilatı Baş Məclisi İnsan hüquqları haqqında Ümumi Bəyannamə qəbul etmişdir. Həmin tarixdən etibarən hər il dekabrın 10-u bütün dünyada "İnsan Hüquqları Günü" kimi qeyd olunur.***

Ötən əsrin sonlarında dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycan Respublikası demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş, Birləşmiş Millətlər Təşkilatının İnsan hüquqları haqqında Ümumi Bəyannaməsinə və digər beynəlxalq konvensiyalara qoşulmuşdur. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun əsasını qoymuş, hüquq islahatlarının keyfiyyətcə yeni mərhələsinin başlanmasına təkan vermiş, mühüm normativ-hüquqi aktlar və dövlət proqramları qəbul edilmiş, insan hüquqlarının təminatı sahəsində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiq müəyyənləşdirilmişdir. Ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərman və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il 18 iyun tarixli Sərəncam ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin mahiyyətini və konsepsiyasını dəqiq müəyyənləşdirməklə insan hüquqlarının davamlı inkişafını təmin etmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan Şərqdə ilk dəfə olaraq ölüm cəzasını ləğv edən ölkə kimi tarixə düşmüşdür. Yüksək humanizmin və insanpərvərliyin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırmışdır.

Azərbaycan Respublikası 1996-2000-ci illərdə insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuş, 2001-ci ildə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etmişdir. Avropa Şurasının bu mühüm sənədinə münasibət bildirməklə Azərbaycan beynəlxalq təşkilatla sıx əməkdaşlığa hazır olduğunu və insan hüquqlarının qorunması sahəsində öz üzərinə götürdüyü öhdəliklərə sadiqliyini bir daha bəyan etmişdir.

Bu gün Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ötən müddətdə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. İnsan hüquqlarının qorunmasını və bu sahədə görülən tədbirlərin genişləndirilməsini daim diqqət mərkəzində saxlayan ölkə başçısının "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq olunması haqqında" 2006-cı il 28 dekabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ölkəmizdə insan hüquq və azadlıqlarının davamlı inkişafına zəmin yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikasında da insan hüquq və azadlıqları daim diqqət mərkəzində saxlanılır, muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir.

Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının müdafiəsi ilə bağlı hüquq institutlarının inkişafı tarixində ən əhəmiyyətli və yaddaqalan hadisə Ali Məclis Sədrinin təşəbbüsü ilə insan hüquqlarının müdafiəsi üzrə orqanlar sistemində yeni və müstəqil məhkəmədənkənar alternativ hüquq müdafiə vasitəsi olan Müvəkkil təsisatının yaradılması olmuşdur. Belə ki, 20 fevral 2006-cı ildə "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu qəbul edilmiş, 21 fevral 2006-cı ildə isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tətbiq edilməsi haqqında Fərman imzalamışdır. Ötən dövr ərzində təsisatın fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılmış, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa edilmiş dəyişikliklərlə təsisatın səlahiyyətləri daha da artırılmışdır. Həyata keçirilmiş bu tədbirlər insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsinə xidmət etmişdir.

Ölkə başçısının "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada bu sahədə inkişafı təmin etmişdir. Belə ki, ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı, hüquq-mühafizə orqanlarının və məhkəmələrin fəaliyyətlərinin müasir tələblər nəzərə alınmaqla təşkil olunması, eləcə də onların maddi-texniki bazasının daha da möhkəmləndirilməsi sahəsində mühüm işlər görülmüş, dövlət orqanlarının, o cümlədən məhkəmə orqanlarının müasir texniki avadanlıqlarla təchiz edilməsi, habelə onların fəaliyyətində yeni informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi istiqamətində bir sıra zəruri addımlar atılmışdır. Müvəkkil təsisatının fəaliyyəti təmin edilmiş, məhkumların hüquqlarının daha səmərəli müdafiəsi məqsədilə penitensiar xidmətin infrastrukturu təkmilləşdirilmiş, hər bir vətəndaşın öz konstitusion hüquq və qanunla qorunan mənafelərinin həyata keçirilməsi, o cümlədən əhalinin yüksəkkeyfiyyətli hüquqi yardımla təmin edilməsi məqsədilə vəkillik institutunun hüquqi statusu müəyyənləşdirilmiş və inkişaf etdirilmişdir.

Bu gün Naxçıvan Muxtar Respublikasında aparılan məqsədyönlü sosial siyasət nəticəsində insanların maddi rifah halı yüksəlmiş, hüquq və azadlıqların qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsi kimi məşğulluq probleminin həlli mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluq üçün əlverişli şəraitin yaradılmasına, özünüməşğulluq və peşə hazırlığı imkanlarının artırılmasına zəmin yaratmışdır.

Ötən dövr ərzində muxtar respublikada sosial qayğıya ehtiyacı olan vətəndaşların, o cümlədən məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların cəmiyyətə inteqrasiyası istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan sərəncamlarla "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" qəbul olunmuşdur. Dövlət proqramlarının icrasına uyğun olaraq bu kateqoriyadan olan şəxslərin sosial təminatının yaxşılaşdırılması, onların minik avtomobilləri və texniki-bərpa vasitələri ilə təmin edilməsi, təhsil almaları, məşğulluq imkanlarının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, habelə asudə vaxtlarının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılmışdır.

Muxtar respublikada qadın hüquqlarının müdafiəsi, o cümlədən məşğulluğunun təmin olunması diqqət mərkəzində saxlanılmış, onların fəaliyyəti üçün yaradılan şərait qadınların ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmasını şərtləndirməklə yanaşı, həm də öz potensiallarının səmərəli şəkildə reallaşdırılmalarına yol açmışdır.

Naxçıvan Muxtar Respublikasında dövlət gənclər siyasəti də uğurla həyata keçirilir. Son illər muxtar respublikada Gənclər Mərkəzi, kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, məktəb binaları, olimpiya-idman kompleksləri, idman mərkəzləri və digər obyektlər tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Gənclərin asudə vaxtlarının səmərəli təşkili, yaradıcılıq potensiallarının üzə çıxarılması, o cümlədən onların hüquq sahəsinə olan maraqlarının artırılması, gənclər arasında insan hüquq və azadlıqlarının təbliği daim diqqət mərkəzində saxlanılır və bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təşkilatçılığı ilə mütəmadi olaraq hüquq olimpiadaları və bilik yarışları, intellektual oyunlar həyata keçirilir.

Muxtar respublikada məhkumların saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması və onların yaşayış yerlərinə yaxın ərazilərdə saxlanılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. 2008-ci ildə məhkumların və saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi məqsədilə müasir standartlara cavab verən Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi ölkəmizdə ilk dəfə olaraq muxtar respublikamızda istifadəyə verilmişdir. Müasir tələblərə cavab verən bu müəssisənin yaradılması insan hüquqlarının müdafiəsi sahəsində mühüm tədbirlərin davamı kimi xüsusi əhəmiyyətə malikdir. Məhkumların asudə vaxtlarının təşkili və əmək fəaliyyətinin daha səmərəli təmin edilməsi məqsədilə 2016-cı ildə Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yeni yaradıcılıq və istehsalat binası istifadəyə verilmiş, məhkumlara xalçaçılıq və misgərlik sənəti üzrə kurslar təşkil olunmuş, onların istehsalat sahəsində hazırladıqları əl işləri muxtar respublikada keçirilən müxtəlif sərgilərdə nümayiş etdirilmişdir.

Miqrantların hüquq və azadlıqlarının qorunması və təminatı da diqqət mərkəzində saxlanılmış, saxlanılan miqrantların hüquqlarının təmin edilməsi məqsədilə 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrantların Saxlanılması Mərkəzi istifadəyə verilmişdir. Qanunvericilikdə nəzərdə tutulmuş qaydalara uyğun olaraq mərkəzdə hər cür şərait yaradılmış, burada sosial-məişət otaqları, könüllü və məcburi saxlanılanlar üçün yataq otaqları, görüş, tibb, uşaq-əyləncə, yoxlama, sorğu, karantin, növbətçi və istirahət otaqları, yeməkxana, bərbərxana, ərzaq və əşya anbarları istifadəyə verilmişdir.

Muxtar respublikada azad mətbuatın fəaliyyət göstərməsi, söz və fikir azadlığının təmin olunması, sürətli internetə çıxış imkanlarının yaradılması insan hüquqlarının və azadlıqlarının qorunması sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır. Ötən dövrdə milli mətbuatın yubileylərinin dövlət səviyyəsində qeyd olunması, 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının yaradılması, 2012-ci ildə "Şərq qapısı" qəzetinin internet saytının fəaliyyətə başlaması, 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi üçün yeni internet saytının yaradılması və teleradio verilişlərinin internet üzərindən yayıma başlaması, 2018-ci ildə isə muxtar respublikanın ilk informasiya agentliyinin "Nuhçıxan" İnformasiya Agentliyinin və onun internet saytının yaradılması Ali Məclis Sədrinin mətbuata və kütləvi informasiya vasitələrinə göstərdiyi diqqət və qayğısının parlaq təzahürü olmaqla yanaşı, həm də ictimai tribuna kimi insan hüquqlarının təminatı sahəsində görülən işlərin davamıdır.

***Muxtar respublikada sosial-iqtisadi inkişafın təmin edilməsi və bu sahədə həyata keçirilən tədbirlər, bütün sahələrdə müasir çağırışlara əsaslanan yeni üsul və sistemlərin tətbiqi, habelə dövlət orqanlarının fəaliyyətinin davamlı təkmilləşdirilməsi insan hüquqlarının və azadlıqlarının səmərəli təmin edilməsi və səmərəli müdafiəsinə şərait yaratmışdır.***

**Naxçıvan Muxtar Respublikasının**
***İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

---

## Muxtar respublikada suvarılan torpaq sahələri genişləndirilir

*Noyabr ayında muxtar respublikada yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi və əkin sahələrinin suvarma suyu ilə təminatı diqqət mərkəzində saxlanılmışdır.*



Bu dövrdə su istifadəçilərinə 19 milyon kubmetrdən artıq suvarma suyu verilmiş, 15 min 979 hektar torpaq sahəsi suvarılmışdır. Torpaqlarda şoranlaşmanın qarşısını almaq üçün 13 kilometr beton və torpaq kanal, 24 kilometr ara arxlar lildən təmizlənmiş, 4 kilometr suvarma boru xətti çəkilmişdir.

Kəngərli rayonunun Böyükdüz kəndinin 616 hektar əkin sahəsini əhatə edən qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir. Həmçinin ötən ay 53 subartezian quyusunda təmir işləri aparılmış, 5 kəhrizdə bərpa işləri davam etdirilmişdir.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Ordubad və Şahbuz rayonlarında işlər davam etdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
***Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

---

## Nəqliyyatın intensiv hərəkəti təmin edilir

*Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti noyabr ayında muxtar respublika əhalisinə göstərilən avtonəqliyyat xidməti səviyyəsinin yüksəldilməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir.*

Belə ki, payız-qış mövsümünə hazırlıqla bağlı verilmiş tapşırıqların icrası davam etdirilmiş, ictimai nəqliyyatda xidmətin keyfiyyətinə və xəttə buraxılan, həmçinin yükdaşıma fəaliyyəti göstərən avtonəqliyyat vasitələrinin texniki cəhətdən saz olmalarına nəzarət artırılmış, ucqar dağ kəndlərinə işləyən nəqliyyat vasitələrinin sahibkarları ilə əlaqə saxlanılmış, mövcud çatışmazlıqların aradan qaldırılması üçün onlara lazımi köməklik göstərilmişdir.

Şəhərdaxili nəqliyyatın intensiv və keyfiyyətli fəaliyyətini təmin etmək üçün tədbirlər görülmüş, Xətai məhəlləsində yeni obyektlərin istifadəyə verilməsi ilə əlaqədar 1 nömrəli marşrut xəttinin hərəkət istiqaməti uzadılmışdır.

Noyabr ayında beynəlxalq sərnişindaşıma xidməti göstərən avtobusların fəaliyyətinə nəzarət gücləndirilmiş, Naxçıvan-İqdır-Naxçıvan marşrutunda gündəlik sərnişindaşıma xidməti həyata keçirilmişdir. Bu dövrdə İran İslam Respublikasından keçməklə Naxçıvan-Bakı-Naxçıvan avtobus marşrutu ilə Naxçıvandan



Bakıya 1135, Bakıdan Naxçıvana isə 1008 sərnişin daşınmış, muxtar respublikanın bütün yaşayış məntəqələri marşrutla təmin edilmiş, 483 taksi sərnişindaşıma fəaliyyətini davam etdirmişdir.

**Naxçıvan Muxtar Respublikası**
***Dövlət Nəqliyyat Xidməti***

# Oxucu məktubları

Minnətdarlıq

## Kəndimiz inkişaf və tərəqqi ünvanına çevrilib

*Hörmətli redaksiya!*

Bu məktubu sizə Babək rayonunun ucqar dağ və sərhəd kəndi olan Aşağı Buzqovdan yazıram. Bir zamanlar Buzqov deyəndə insan müharibə əhval-ruhiyyəsinə köklənirdi. Ona görə ki, ötən əsrin 90-cı illərində muxtar respublikanın bütün sərhəd kəndləri kimi, Buzqovda da narahat, nigaran günlər hökm sürürdü. Doğma kəndimiz faktiki olaraq erməni işğalı ilə üz-üzə dayanmışdı. Yolların əməlli-başlı sıradan çıxması gediş-gəlişi bir az da çətinləşdirirdi. Naxçıvan şəhəri ilə olan əlaqəmiz, demək olar ki, kəsilmişdi. O vaxt sərhəd kəndinin sakinlərini narahat edən problemlərdən biri də ərzaqla bağlı idi. Nadir hallarda tapılan unun bir tayı od qiymətinə satılırdı. Mağazalarda gündəlik tələbat malları qəhətə çıxmışdı. Kənddəki karxana da fəaliyyətini dayandırmışdı, işsizlik baş alıb gedirdi. Bir sözlə, o dövrdə bütün sərhədyanı kəndlərin sakinləri kimi, biz də ağır və məşəqqətli günlər yaşadıq.

Amma bir an da sabaha olan ümidimizi itirmədik. Zamanında ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşdik, elimizi-obamızı işğaldan qoruduq. Bu gün isə dahi şəxsiyyətin müəyyən etdiyi inkişaf və quruculuq xəttinin bəhrələri Aşağı Buzqovda da aydın görünür. Bu ilin oktyabr ayında muxtar respublika rəhbərinin iştirakı ilə kəndimizdə 3 sosial obyekt və müasir yol istifadəyə verildi. İndi burada bir zaman xəyal etdiyimiz, arzuladığımız gün-güzəranı, yaşayışı görürük. Dağ kəndində xəstəxanatipli həkim ambulatoriyasının müasir maddi-texniki təchizatla təmin olunub istifadəyə verilməsi Naxçıvan səhiyyəsinin yeni inkişaf



mərhələsində olduğunu göstərir. Oğul-uşağımız bir vaxtlar həsrətində olduğumuz müasir tədris ocağında təhsil alır. Onu da deyim ki, burada çalışan müəllimlər üçün əlavə stimullaşdırıcı tədbirlər nəzərdə tutulub.

Kəndimizdə xidmət sahələrində yeni iş yerləri yaradılıb. Əlavə olaraq ailə-fermer təsərrüfatlarının fəaliyyəti genişlənib. Dövlətin bu sahəyə göstərdiyi maddi dəstək imkan verir ki, Aşağı Buzqovda da yeni sahibkarlar sinfi formalaşsın. İndi burada istehsal olunan məhsullar Naxçıvanın dükan-bazarlarında, eləcə də müxtəlif festivallarda xüsusilə seçilir.

Aşağı Buzqovun sinəsindən ayrılan yol Yuxarı Buzqovadək uzanır. İndi 5 kilometrlik bu asfalt yolu bir göz qırpımında qət edib həmin kəndə çatmaq olur. Yuxarı Buzqovda da yeni sosial obyektlər istifadəyə verilib, sakinlərin rahat yaşaması və işləməsi üçün nə lazımdırsa, edilib.

Hörmətli redaksiya! Müasir dövrdə sabitlik və əmin-amanlıq şəraitində yaşamaq hər xalqa nəsib olan iş deyil. Bu mənada, Azərbaycan xalqı çox xoşbəxtdir. İndi ölkəmizdə hökm sürən sabitlik Yuxarı və Aşağı Buzqov kəndlərinə də yenilik, inkişaf və tərəqqi gətirib. Bu işlərə görə kənd sakinləri adından Ali Məclis Sədrinə dərin hörmət və minnətdarlığımı ifadə edirəm.

**Hüseyn BAĞIROV**
***Aşağı Buzqov kənd sakini***

Razılıq

## Keyfiyyətli məhsul əldə etməyə çalışacağıq

*Hörmətli redaksiya!*

Son illər muxtar respublikada arıçılığın inkişafına göstərilən dövlət qayğısı, qəbul olunmuş dövlət proqramları sahibkarların bu sahəyə olan marağını artırıb. Torpaqlarımızın özümüzə qaytarılması, əkin sahələrimizi xeyli genişləndirməyimiz biz arıçıların da işinə müsbət təsir göstərib. Arıların ən çox bal topladığı yonca, taxıl əkinləri xeyli artırılıb. Örüş və qoruq sahələrinin çoxalması da arıçılığın inkişafında böyük rol oynayır. Bundan başqa, arılara düzgün qulluq edilməsi üçün zəruri dərman preparatlarını dövlət tərəfindən pulsuz və vaxtında ala bilməyimiz arıçılıqla məşğul olan sahibkar dostlarım tərəfindən böyük minnətdarlıqla qarşılanır.



İllərdir ki, arıçılıqla məşğulam, 80 arı ailəsinə qulluq edirəm. Balı hasilə gətirən arılar təbiətin ən zəhmətkeş məxluqlarıdır. Arı körpə uşaq kimidir. Daim qayğı və baxım tələb edir, qarşılığında isə çəkdiyin zəhmət hədər getmir. Bu il də yaxşı məhsula sahib olmuşam.

Onu da deyim ki, doğma kəndim Günnüt işğaldan azad ediləndən sonra arı ailələrini buraya köçürmüşük. Günnütün münbit torpaqlarında bitən güllərdən, müxtəlif otların, dərman bitkilərinin çiçəklərindən toplanan bal daha keyfiyyətli və dadlıdır. Bu bal illərdir, Vətən, torpaq həsrətində olan günnütlülərin öz doğma yurdlarında hasilə gətirdikləri ilk məhsuldur. Bu ilin mayında doğma kəndimizin uğurlu əməliyyatla düşməndən azad edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Günnütə gələrək şəxsən bizimlə görüşməsi hamımızın sevincinə səbəb oldu. Bu gün doğma kəndimizdə təsərrüfatla məşğul olmağımız üçün hər cür şərait yaradılıb.

Onu da bildirim ki, bu il muxtar respublikada keçirilən "Arıçılıq məhsulları – bal festivalı"nda iştirak etdim. Məhsulum keyfiyyətinə görə yüksək qiymətləndirildi və mükafata layiq görüldüm. Belə festivalların təşkil edilməsi isə həmin məhsulu satmağa yaradılan şərait kimi bizi çox sevindirir. Arıçılıqla məşğul olan biz kənd adamları da bu şəraitin müqabilində daha bol, keyfiyyətli və dadlı məhsul əldə etmək üçün zəhmətsevərliklə, halallıqla çalışacağıq.

**Fikrət MƏMMƏDOV**
***Şərur rayonu***

## Tütünçülük ənənələri inkişaf etdirilir

*Hörmətli redaksiya!*

Ötən əsrin səksəninci illərinin sonunadək Şərur və indiki Kəngərli rayonunda tütünçülük kənd təsərrüfatının ən geniş yayılmış sahələrindən biri, biz kəndlilərin dolanışıq yolu idi. Təəssüf ki, bəhs olunan dövrdə kənd təsərrüfatında da yaranmış tənəzzül tütünçülükdən də yan keçmədi. Müstəqilliyinin ilk illərində Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən kənd təsərrüfatının gəlirli sahələrindən hesab olunan tütünçülüyün inkişafında müəyyən çətinliklər yaranmışdı. Son illərdə dövlət tərəfindən aparılan davamlı və sistemli iqtisadi islahatlar bu problemləri aradan qaldırmaqdadır. Tütünçülüyün dirçəlməsi kənd əhalisinin məşğulluğunu da təmin edir. Bu sahənin inkişafı, tütün emalı sahələrinin yaradılması istehsal etdiyimiz məhsulu xammal kimi rahat və münasib qiymətə təhvil verməyimizi asanlaşdırıb. Buna görə də bu sahə ilə məşğul olanların sayı getdikcə artmaqdadır.



Bütün bunları Kəngərli rayonunun timsalında da görə bilərik. Bu bölgənin təbii-iqlim şəraiti tütünçülüyün inkişaf etdirilməsi üçün olduqca əlverişlidir.

Onu da deyim ki, "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqı tərəfindən rayonun kəndlərində əkin keçirilib, kəndlinin tütünçülüklə məşğul olması üçün hər cür şərait yaradılıb. Tütünün şitilini əldə etmək də çətin deyil. Onu "Cahan Tobacco"dan alırıq. Bir hektara yaxın tütün sahəsindən 14 tona yaxın yaş məhsul əldə etmişəm. Zəhmətimizin qarşılığını ikiqat çıxarmışam. Dövlət bizə hər cür köməkliyi göstərir. Yaradılan şəraitə, tütünçülük ənənələrinin bərpasına göstərilən qayğıya görə dövlətimizə minnətdarıq.

**Şahlar ORUCOV**
***Kəngərli rayonu Təzəkənd sakini***

## Problemlərimiz öz həllini tapıb



*Hörmətli redaksiya!*

Mənim 65 yaşım var. Naxçıvan şəhərinin Xətai məhəlləsində yaşayıram. Uzun illərdir, buradan şəhər mərkəzinə getmək üçün bir çox çətinliklərlə qarşılaşırdıq. Nə yolumuz abad idi, nə də ki, hansısa məişət problemlərimizi həll etmək məqsədilə şəhər mərkəzinə çıxmaq üçün marşrutumuz var idi. Evimizdən şəhərarası marşruta çatmaq üçün bərbad vəziyyətdə olan bir kilometrdən artıq yolu piyada getməli idik. Ətrafda taksi tapmaq da asan məsələ deyildi. Yayın qızmar istisində, qışın şaxtasında məktəbə, bağçaya gedən körpələr, evinə, ailəsinə bazarlıq edib ağır zənbillərlə qayıdan qadınlarımız da eyni çətinliklə üzləşirdilər. Mənim kimi yaşlı, artıq sağlamlığını itirmiş ahıl insanlar üçün isə ürəyin istəyən vaxt qonaq getmək, kiminsə xeyir-şərində iştirak etmək, xəstə yoluxa bilmək lap müşkülə çevrilmişdi. Bu çətinliklərə görə qızımgilə, nəvələrimi görməyə belə, gedə bilmirdim.

Şükürlər olsun ki, dövlətimizin qayğısı sayəsində artıq bu problemimiz ortadan qaldırılıb. Qapımıza kimi asfalt yol salınıb, artıq bir neçə həftədir ki, 1 nömrəli şəhərarası marşrut öz yolunu burdan salır. İndi nəvələrim məktəbə, bağçaya gedib-gələndə nigarançılıq keçirmirəm. Bazara, dükana da rahat gedib-gəlirik. Bir sözlə, bütün qayğılarımız öz həllini tapıb.

Burada yaşayan sakinlər adından dövlətimizə minnətdarlığımı bildirir, qurub-yaradan əllər var olsun, – deyirəm.

**Kifayət HƏMZƏYEVA**
***Naxçıvan şəhər sakini***

## "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda tədbir



***Şərur rayonunun Düdəngə Kənd Mərkəzində "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda keçirilən tədbiri rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Ağayeva açıb.***

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova "Ailələrdə qadınların ailə dəyərlərinin və sağlam həyat tərzinin aşılanmasında əsas rolu" mövzusunda çıxış edib. Bildirib ki, ailənin daha davamlı olmasının əsas şərtlərindən biri valideynlər tərəfindən, xüsusən də qadınlarımız tərəfindən gənclərə ailə qurmaları ilə əlaqədar düzgün yol göstərməkdən ibarətdir.

Komitə sədri qeyd edib ki, ailə quracaq gənclər lazımi tibbi müayinədən keçmədikdə bu nikahlardan çox zaman sağlamlıq imkanları məhdud uşaqlar dünyaya gəlir.

Vurğulanıb ki, aparılan təhlillərə görə, Şərur rayonu üzrə 41529 uşaq vardır. Bu uşaqlardan da 435-i sağlamlıq imkanları məhdud uşaqdır.

Sonra "Qadınlarda virus hepatitlərinin fəsadları, bətn daxilindəki uşağın xəstəlikləri və onlarla mübarizə yolları" mövzusunda Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb elmləri üzrə fəlsəfə doktoru Gültəkin Əliyevanın çıxışı dinlənilib.

Tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında "Sosial sahələrin iqtisadiyyatı" adlı dərs vəsaitinin təqdimatı keçirilib.*

## Ali təhsil ocağında kitab təqdimatı olub

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qeyd edib ki, respublikada sosial infrastruktur sahələrinin inkişafı üçün zəruri şərait mövcuddur və bu, yeni elmi nəşrlərdə də öz əksini tapır.

Tədbirdə yeni nəşr haqqında fikirlər dinlənilib. Nəzərə çatdırılıb ki, təqdim olunan dərs vəsaitində real tədqiqatlar əsasında respublikada sosial sahələrin iqtisadiyyatı, onun büdcə, sahibkarlıq və maliyyə istiqamətləri, sosial infrastruktur anlayışı və xidmət sahələri geniş təhlil olunur.

Kitabın müəllifi, iqtisad üzrə fəlsəfə doktoru Həvva Adgözəlova yeni nəşrdən söhbət açaraq sosial sahələrin iqtisadiyyatının mahiyyəti, əsas istiqamətləri, əhalinin həyat səviyyəsinin, gəlirlərin tənzimlənməsi, planlaşdırılması kimi



mövzuların burada yer aldığını nəzərə çatdırıb. 2 fəsil 6 paraqrafdan ibarət olan kitabda Naxçıvanda sosial sahələrin idarə olunması, inkişafı göstəricilərindən bəhs olunub.

Müəllif yaradıcı insanların elmi-pedaqoji fəaliyyəti üçün göstərilən dövlət dəstəyinə görə minnətdarlığını bildirib.

**Badəm MƏMMƏDOVA**

## Atıcılıq Federasiyasının fəaliyyəti ilə bağlı iclas olub



*Naxçıvan Muxtar Respublika Stadionunun iclas zalında Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının fəaliyyəti ilə bağlı iclas keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşları və federasiya üzvləri iştirak ediblər.

İclasda çıxış edən muxtar respublikanın gənclər və idman naziri Azad Cabbarov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı 18 mart 2013-cü il tarixdə keçirilən müşavirədən sonra muxtar respublikada atıcılıq idman növünün maddi-texniki bazasının formalaşdırılması və möhkəmləndirilməsi istiqamətində görülən mühüm işlərdən biri də atıcılıq üzrə idman klublarının təsis edilməsi olub. Müşavirədən sonra Naxçıvanda iki atıcılıq klubu yaradılıb və yaradılmış bu iki idman klubu əsasında Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyası təsis edilib. 2013-cü ilin dekabr ayının 7-də isə Atıcılıq Mərkəzi istifadəyə verilib. Mərkəzdə inzibati bina, iki stend və sportinq meydançası, oxçuluq və tir sahələri, peyntbol meydançası, hərbi-idman oyunlarının keçirilməsi üçün ərazi yaradılıb. Federasiya muxtar respublikada atıcılıq üzrə idman yarışlarının keçirilməsinə təşəbbüskarlıq göstərilməsini, təşkil olunan atıcılıq üzrə idman yarışlarında klub üzvlərinin iştirakının təmin olunmasını, mütəxəssislərin ixtisaslarının artırılmasını, atıcılıq üzrə muxtar respublikanın yığma komandasına cəlb edilmiş klub üzvlərinin müvafiq çempionatlarda, həmçinin beynəlxalq yarışlarda müvəffəqiyyətlə çıxış etməsi üçün şərait yaradılması kimi məsələləri də özünün əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdirib.

Atıcılıq Mərkəzinin açılışı zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən atıcılıq üzrə yığma komandanın formalaşdırılması, yığma komandanın ölkə miqyaslı və beynəlxalq yarışlarda iştirakının təmin edilməsi, federasiyaya üzvlərin qəbul olunması və Naxçıvan Muxtar Respublikası Atıcılıq Mərkəzində Azərbaycan və beynəlxalq səviyyəli yarışların keçirilməsi barədə tapşırıqlar verilib. Lakin Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyası il ərzində idmançıların Azərbaycan və beynəlxalq səviyyəli yarışlarda iştirakını təmin etməyib, keçirilən muxtar respublika yarışları isə keyfiyyət və təşkilatçılıq baxımından aşağı səviyyədə olub. Bu gün federasiyada fərqlənən idmançı və məşqçi-müəllimlər yox dərəcəsindədir. Eyni zamanda məşqçi-müəllim və idmançıların olmaması federasiyanın muxtar respublikadan kənarda keçirilən yarışlarda iştirak etməməsinə səbəb olub.

İşini günün tələblərinə uyğun qurmayan federasiyanın yarıtmaz fəaliyyətinin nəticəsi olaraq federasiya sədri Asəf Məmmədov vəzifəsindən azad olunub. Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının Atıcılıq Mərkəzində avadanlıqların qorunması, onlardan günün tələblərinə uyğun olaraq istifadə edilməsi, işin düzgün qurulması kimi bir sıra məsələlərə nəzarət federasiyanın üzvü Canməmməd Canməmmədova tapşırılıb.

**✍ Ceyhun MƏMMƏDOV**

## Gənclər siyasəti uğurla həyata keçirilir

Noyabr ayında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən muxtar respublikada idmanın kütləviliyinin təmin edilməsi diqqət mərkəzində saxlanılmış, Naxçıvan şəhərində Türk Şurası Gənc Liderlərinin ilk forumu keçirilmiş, "Azərbaycanda Belarus gəncləri günləri" çərçivəsində Belarus Respublikasından bir qrup gəncin, həmçinin Azərbaycanın regionlarından fəal gənclərin və Gənclər təşkilatlarının üzvlərindən ibarət 100 gəncin muxtar respublikaya ekskursiyası təşkil olunmuşdur. 10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, həmçinin əcnəbi tələbələr arasında müsabiqələr keçirilmişdir. Bununla yanaşı, ümummilli lider Heydər Əliyevin siyasi irsinin gənclərə öyrədilməsi məqsədilə Naxçıvan Müəllimlər İnstitutunda açıq dərs, gənclərin iştirakı ilə "Muxtar respublikanı necə tanıdırıq" mövzusunda dəyirmi masa təşkil olunmuşdur.

Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin oğlan və qız tələbələri arasında stolüstü tennis, badminton, voleybol və kross qaçışı üzrə muxtar respublika birincilikləri keçirilmiş, Culfa Rayon Mərkəzi Stadionu yenidən qurularaq gənclərin istifadəsinə verilmişdir. Həmçinin məktəblilər və 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlar arasında şahmat, idmanın müxtəlif növləri üzrə şəhər və rayon birincilikləri, yoldaşlıq görüşləri təşkil olunmuşdur.

Noyabr ayında muxtar respublika idmançıları ölkə birinciliklərində 8 medal qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Tələbə və müəllim heyəti təcrübə kursuna göndərilib

İxtisaslı kadrların hazırlanması və beynəlxalq elmi əlaqələrin genişləndirilməsi məqsədilə Naxçıvan Tibb Kollecinin 12 nəfərdən ibarət müəllim və tələbə heyəti Türkiyə Respublikasının Ankara şəhərində yerləşən Halide Edip Mesleki və Teknik Anadolu Liseyində biraylıq təcrübə kursuna yola salınıb.

Tələbələr kurs müddətində araşdırma xəstəxanasının daxili xəstəliklər və cərrahiyyə, təcili tibbi yardım üzrə bölmələrində, yenidoğulmuşlar, döş qəfəsi, yoluxucu xəstəliklər şöbələrində plastik və qeysəriyyə əməliyyatlarını izləyib, doğuş palatalarında, genetik laboratoriyada iş prosesi ilə tanış olub, müasir tibbi avadanlıq və cihazların istifadə qaydalarını, yeni müayinə-müalicə üsullarını mənimsəyiblər. Onlar müxtəlif əməliyyatlarda, sarğıların qoyulmasında, digər tibbi proseslərdə iştirak edib, qarşılıqlı təcrübə mübadiləsi aparıblar. Növbəti heyətdə isə mamalıq və tibb bacısı işi üzrə təhsil alan 10 tələbə, 2 müəllim təmsil olunurlar.

Qeyd edək ki, belə tədbirlər Naxçıvan Tibb Kollecində ixtisaslı tibb işçilərinin hazırlanması işinə öz töhfəsini verir və muxtar respublikanın səhiyyə ocaqlarının kadr təminatının ödənilməsi məqsədi daşıyır.

Türkiyə Respublikasının tanınmış klinika və ali məktəbləri ilə qarşılıqlı əməkdaşlıq əlaqələri bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi 2018-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya, elmlər doktoru hazırlığı üzrə dissertantura və doktoranturaya qəbul elan edir

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru hazırlığı üzrə | | | | | | | | Elmlər doktoru hazırlığı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | |
| | | cəmi | o cümlədən: büdcə hesabına | | o cümlədən: ödənişli əsaslarla | | cəmi | o cümlədən: büdcə hesabına | o cümlədən: ödənişli əsaslarla | cəmi | o cümlədən: büdcə hesabına | | o cümlədən: ödənişli əsaslarla | | cəmi | o cümlədən: büdcə hesabına | o cümlədən: ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| **Təbii Ehtiyatlar İnstitutu üzrə** | | | | | | | | | | | | | | | | | |
| 2220.01 | Yarımkeçiricilər fizikası | | | | | | 1 | 1 | | | | | | | | | |
| 2303.01 | Qeyri-üzvi kimya | | | | | | 1 | 1 | | | | | | | | | |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | | | | | | 1 | 1 | | | | | | | | | |
| **Batabat Astrofizika Rəsədxanası üzrə** | | | | | | | | | | | | | | | | | |
| 2104.01 | Planetologiya | | | | | | 1 | 1 | | | | | | | | | |
| **Bioresurslar İnstitutu üzrə** | | | | | | | | | | | | | | | | | |
| 2409.01 | Parazitologiya | | | | | | 1 | 1 | | | | | | | | | |
| 2417.01 | Botanika | | | | | | 1 | 1 | | | | | | | | | |
| **Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu üzrə** | | | | | | | | | | | | | | | | | |
| 5503.02 | Vətən tarixi | | | | | | 1 | 1 | | | | | | | | | |
| 5505.02 | Arxeologiya | | | | | | 1 | 1 | | | | | | | | | |
| **İncəsənət, Dil və Ədəbiyyat İnstitutu üzrə** | | | | | | | | | | | | | | | | | |
| 5706.01 | Azərbaycan dili | | | | | | 1 | 1 | | 1 | | 1 | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | | | | | | 1 | 1 | | 1 | | 1 | | | | | |
| 6218.01 | Dekorativ-tətbiqi sənət | | | | | | 1 | 1 | | | | | | | | | |
| 5719.01 | Folklorşünaslıq | | | | | | | | | 1 | | 1 | | | 1 | 1 | |
| 6203.01 | İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi | | | | | | 1 | 1 | | | | | | | | | |
| 6213.01 | Musiqi sənəti | | | | | | 1 | 1 | | | | | | | | | |
| 6401.01 | Memarlıq nəzəriyyəsi və tarixi, abidələrin bərpası və rekonstruksiyası | | | | | | 1 | 1 | | | | | | | | | |
| **Cəmi:** | | | | | | | **14** | **14** | | **3** | | **3** | | | **2** | **2** | |

***Qəbul üçün aşağıdakı sənədlər təqdim olunmalıdır***

- müəssisə rəhbərinin adına ərizə;
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 santimetr ölçüdə);
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- iş yerindən xasiyyətnamə;
- çap olunmuş elmi işlərin siyahısı və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- fəlsəfə doktoru (elmlər namizədi) elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (elmlər doktoru proqramı üzrə);
– şəxsiyyəti təsdiq edən sənədin surəti.

Sənədlər 25 dekabr 2018-ci il tarixə qədər saat $9^{00}$-dan $17^{00}$-a kimi AMEA Naxçıvan Bölməsinin əsas binasında, Təhsil və kadrlar şöbəsində qəbul edilir.

***Ünvan: Heydər Əliyev prospekti 76***
***Əlaqə telefonu: 544-65-97***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 891